*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 3 (2025): Summer*

# Ramiz Rövşənin "Bu Dünyanin Hər Sifəti" Adli Kitabinda Yer Alan Bəzi Şeirlərində Fəlsəfi Məsələlərin Şərhi

**[1] Zamin Babazadə, [2] Murad Qənbərov**

https://doi.org/10.69760/gsrh.0203025011

**Xülasə:**
Bu məqalədə Azərbaycan ədəbiyyatının müasir dövrünün önəmli simalarından biri olan Ramiz Rövşənin ədəbi irsindəki bir sıra şeirlərdə yer alan fəlsəfi fikirlərin şərhinə və onların geniş mənzərəsinin açılmasına diqqət yetirilmişdir. Məqalədə əks olunan şeirlərin təhlili zamanı fəlsəfənin şeirdəki dərin mənalarını görmək mümkündür. Şeirləri fəlsəfi aspektən təhilil etməkdə məqsədimiz R.Rövşən yaradıcılığında əks olunan fərqli düşüncələri anlamaq və şairin bir sıra məqamlarda sətraltı mənalarla bizlərə nə demək istədiyini izah etməkdir. Bundan əlavə şairin bu əsərləri daxilində bir sıra mənəvi dəyərləri əks etdirir. Azərbaycan mentalitetində yer alan simvolik fiqurlardan istifadə edən şair həmin vasitə ilə bizlərə "öz mədəniyyətimizi qorumağı bacarmalıyıq" fikrini demək istəyir.
R.Rövşənin bədii yaradıcılığı yalnız şeirlə məhdudlaşmır, onun əsərlərində hekayə, povest, poema, esse və digər janrlar da mövcuddur. Lakin hər bir əsərində fəlsəfi düşüncələrə geniş yer verməsi, onu ədəbi irsimizdəki əhəmiyyətli fəlsəfi şairlərdən birinə çevirir. R.Rövşən sadə və gündəlik dil vasitəsilə dərin fəlsəfi mənaları ortaya qoyma bacarığı ilə xüsusilə seçilir. O, sadə sözlərə böyük dərinlik və anlamlar yükləyərək bu sözləri həm də bir növ düşüncə xəzinəsinə çevirir.

**Açar sözlər:**
*Ramiz Rövşən, poeziya, şeir, fəlsəfi yanaşma*

Azərbaycan ədəbiyyatının XXI əsrin əvvəllərindəki təmsilçilərindən olan R.Rövşən bədii yaradıcılığı ilə daim diqqət mərkəzindədir. "Bu dünyanın hər sifəti" kitabında yer alan bir sıra şeirlər Azərbaycanın müxtəlif filmlərində istifadə olunan obraz və musiqi motivləri ilə birbaşa əlaqəlidir. Kitabda şairin sözləri ilə birləşən film musiqiləri və obrazlar onun ədəbi yaradıcılığında yaratdığı fəlsəfi dünyanı daha da zənginləşdirir.

[1] Babazadə, Z. Nakhchivan State University. Email: zaminbabazade92@gmail.com. ORCID: https://orcid.org/0009-0003-1395-2545

[2] Qənbərov, M. Nakhchivan State University. Email: muradqenberov@ndu.edu.az. ORCID: https://orcid.org/0009-0002-5709-280X

https://creativecommons.org/licenses/by-nc-nd/4.0

Məqalə çərçivəsində təhlil olunan şeirlər Rövşənin fəlsəfi düşüncə dünyasına işarə edir. Bu şeirlər həm də insan həyatının və varlığının məna və məqsədi haqqında düşünməyə bizi vadar edir. Ramiz Rövşənin ədəbi irsi Azərbaycan xalqının və milli mədəniyyətinin qürur mənbəyidir. Onun yaradıcılığında yer alan əsərlər, heç şübhəsiz, müasir ədəbiyyatın düçüncəsinin güzgüsü olaraq xalqımızın mədəniyyət həyatında mühüm yer tutur.

"Şeir haqqında yazmaq, şeir yazmaqdan çətindir" (2). Bu fikir ədəbi tənqid məktəbinin banilərindən biri olan dahi Xətib Təbriziyə məxsusdur. Bu ifadə şeirin nə qədər çətin və mürəkkəb bir sahə olduğunu açıq şəkildə ortaya qoyur. Məhz bu səbəbdən də bir çox qaynaqlarda göstərilir ki, şeir ilahiləşdirilir və hətta şairlərin Allaha ən yaxın insanlar olduğunu qeyd edir. Bu fikir, şeirin yalnız bədii forma deyil, eyni zamanda mənəvi və ruhani dəyər daşıdığını vurğulayır. Elə bu səbəbdən də poeziya, bütöv şəkildə bir elm sahəsi kimi də dəyərləndirilə bilər.

Xalq şairi Ramiz Rövşənin poetik irsi Azərbaycan ədəbiyyatının kulminasiya nöqtələrindən biri hesab olunur və bu irs, nəzmin yeni fəlsəfi mərhələsini təmsil edir. Ramiz Rövşənin yaradıcılığı məzmun və forma baxımından zəngin olmaqla yanaşı, fəlsəfi dərinliyi, insan və həyat haqqında düşüncələri ilə seçilir. Onun şeirlərində ölüm və həyat, ruh və cisim, sevgi və nifrət, xalq və ədalət, insanlıq və vicdan kimi ziddiyyətli fəlsəfi məsələlər bədii şəkildə öz əksini tapır.

R.Rövşən poeziyasını fərqləndirən əsas cəhətlərdən biri də onun xalqla bağının güclü olmasıdır. Onun şeirləri geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanır, çünki bu poeziya xalqın gündəlik həyatına, düşüncə tərzinə və duyğularına yaxındır. Eyni zamanda, R.Rövşən öz poetik irsi ilə Azərbaycan ədəbiyyatının estetik sərhədlərini genişləndirmiş, xalq təfəkkürünü zənginləşdirmiş və ədəbi-bədii düşüncə sisteminin inkişafına əhəmiyyətli töhfə vermişdir.

R.Rövşənin "Bu dünyanın hər sifəti" adlı kitabında yer alan şeirlərdə dərin fəlsəfi məsələlərə toxunulur. Bu əsərlərdə ən çox diqqət çəkən motivlərdən biri ömür və zaman anlayışıdır. Xüsusilə, şairin rejissor və teatr xadimi Vaqif İbrahimoğluna ithaf etdiyi "Hər ömür bir tamaşadır" misrası ilə başlanan şeir bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Həmin şeirdə R.Rövşən ömrün keçiciliyi, vəfasızlığı və teatr tamaşasına bənzərliyi üzərində dayanır. Şair ömrü tamaşa kimi təsvir etdikdə, onun başlanğıc mərhələsinin gözəlliyini, həyatın cazibədarlığını, lakin sonun qaçılmaz olaraq faciə və ya boşluqla nəticələndiyini vurğulayır. Bu baxımdan ömrün estetikası ilə fəlsəfi mahiyyəti arasında incə bir münasibət qurulur. Tamaşanın sonunda pərdənin düşməsi kimi, insan ömrünün də sonunda bir növ "son pərdə"nin enməsi ilə həyat başa çatır.

R.Rövşən şeirdə ömür və insan münasibətini müxtəlif metaforalarla təqdim edir. Bəzən insan ömrə münasibətdə bir "ov" rolunda görünür – ömür bizi yaxalayır. Bəzənsə insan özü "ovçu" olur və həyatın özünü yaxalamağa çalışır. Bu metaforik yanaşma, insanın həyat qarşısındakı qeyri-müəyyən mövqeyini, həm qurban, həm də subyekt olaraq mövcudluğunu açıq şəkildə ortaya qoyur. Şair "Bugün tordan qaçan balıq, sabah tora bir də düşür" misrası ilə həyatın dövri təbiətini,

insanların eyni səhvləri təkrar etməyə meylli olduğunu və təcrübədən dərs çıxarmaqdan çəkinməsini tənqidi bir mövqedən təqdim edir.

Bu poetik təsvirlər insan həyatının müxtəlif mərhələlərinə – gənclik, yetkinlik və qocalıq dövrlərinə işarə edir. Xüsusilə, orta yaş dövrü həyatın ən kritik mərhələsi kimi təqdim olunur; burada insan artıq həyatın məna və məqsədini anlamağa çalışır, lakin çox vaxt artıq gec olur. Şairin fikrincə, insan həyatın mahiyyətini dərk etdiyi anda ömrünün sonuna çatır və tamaşa, pərdə endikdə, artıq bitmiş olur.

Nəticə etibarilə, R.Rövşənin bu şeiri ömür anlayışını teatr metaforası ilə dərin fəlsəfi bir düşüncəyə çevirir. Şair həyatın keçiciliyini və insanın bu keçicilik qarşısındakı acizliyini poetik dildə təsvir etməklə oxucunu öz varlığı üzərində düşünməyə vadar edir. Bu baxımdan “Hər ömür bir tamaşadır” (4, s. 8) misrası, yalnız poetik bir ifadə deyil, həm də varoluş fəlsəfəsinin mərkəzi ideyalarından birinə çevrilir.

R.Rövşənin yaradıcılığının ən dərin fəlsəfi təzahürlərindən biri olaraq “Mənim balam, bu dünyayla oynama” şeiri xüsusi əhəmiyyət kəsb edir. Bu şeir, yalnız ədəbi müstəvidə deyil, həm də tərbiyəvi və fəlsəfi cəhətdən qiymətləndirilə bilər. Şeirin məzmununa nəzər saldıqda, müəllifin həyat və cəmiyyətə dair dərin düşüncələrini və insanın həyat yolunda qarşılaşdığı vacib dəyərləri vurğuladığını müşahidə etmək mümkündür.

Şeirdə diqqət çəkən tərbiyəvi düşüncələrdən biri, xüsusilə “Düşmən nədi, dost evini dost yıxar, bilən bilir dünya necə dünyadı” misrasıdır. Bu misra, cəmiyyətdə dostluğun, qarşılıqlı münasibətlərin və insanların bir-birinə olan təsirinin əhəmiyyətini vurğulayır. Şair burada dostluğun yalnız qarşılıqlı etibar və anlayışa əsaslanmadığını, eyni zamanda bir insanın öz daxili təbiətini və həyat yolunu müəyyən edən əsas amillərdən biri olduğunu da ifadə edir.

Dostluq, ümumiyyətlə, çox mürəkkəb və fəlsəfi bir anlayışdır. Təkcə cəmiyyətin gözləntiləri və sosial münasibətlər çərçivəsində deyil, eyni zamanda insanın daxili dünyasında da müəyyənləşir. R.Rövşən bu anlamı fəlsəfi və poetik dillə izah edərək, oxucusuna dostluğun timsalında insanların etibarsızlığını, güvənsizliyini və nə qədər mənfi fikirli olduqlarını xatırladır. Bu şeir, həm də insanın həyat yolunda başqaları ilə münasibətlərinin nə qədər mürəkkəb olduğunu, lakin doğru dostluq və əlaqələrin insanın daxili harmoniyasını tapmasında necə əhəmiyyətli olduğunu göstərir.

Ömrə, günə etibar yox əzəldən,
Bir də dönüb yarpaq olmaz xəzəldən,
Beşiyindən bizə tabut düzəldən,
Bələyindən kəfən tikən dünyadı (4. səh. 11).

Şeirin bu bəndində bir çox mühüm məsələlər haqqında dərin düşüncələr və nəticələr çıxarmaq mümkündür. İlk misralarda, şair həyatın qısa olduğunu və bu həyatın bir daha bizə verilməyəcəyini poetik bir şəkildə vurğulayır. Bu düşüncə, həm də R.Rövşənin digər bədii nümunələrində də yer alan dünyanın vəfasızlığı mövzusunun təkrarıdır. Şeir, fəlsəfi fikrin poetik dillə mükəmməl şəkildə

şərh edilməsidir. Bu misralarda həyatın keçici və əhəmiyyətli olması, həmçinin hər anın qiymətinin dərk edilməsi vacibliyi vurğulanır.

Şeirin sonunda verilən hər iki misrada isə həyat və ölümün bir-biri ilə vəhdəti görünür. Burada şair, həyatın sona çatmasının necə qısa və sürətlə baş verdiyini, bu hadisənin gözlənilmədən və göz qırpımında reallaşdığını poetik bir şəkildə ifadə edir. Şairin bu yanaşması, insan həyatının təbiətinin müvəqqəti olmasını və həyatın qiymətinin vaxtında anlaşılmasının vacibliyini önə çəkir.

Son misralarda ("Möhkəm yapış papağından, başından, başdan papaq alıb qaçan dünyadı") verilən fikir isə Azərbaycanın sosial və mədəni mentalitetinə dərin bir işarədir. Ramiz Rövşən burada qeyrətin qorunmasının bu dünyada nə qədər çətin olduğunu qeyd edir. Azərbaycan mədəniyyətində papaq, qeyrət və ailə dəyərlərinin simvolu kimi qəbul edilir. Papağın itirilməsi, cəmiyyətimizdə mənfi bir anlayış olaraq qəbul edilir və bu, qəbuledilməz bir davranış kimi səciyyələndirilir. Bu simvolik element, şairin cəmiyyətdəki dəyərlərə və sosial münasibətlərə dair fəlsəfi yanaşmasını əks etdirir.

Şairin əsərlərində dərin fəlsəfi mövzulara toxunulmaqla yanaşı, həyatın müxtəlif aspektləri, insanın daxili dünyası və cəmiyyətin mövcud problemləri barədə də fikirlər irəli sürülür. Məsələn, "Dünyada tək bircə söz var" şeirində şair, sözün əhəmiyyətini və gücünü, həmçinin sözün müxtəlif mənalarını müzakirə edir. Bu şeir, şairin sözə olan dərin hörmətini və sözün cəmiyyətdəki rolunun nə qədər vacib olduğunu göstərir.

Şeirin ilk bəndində deyilir:

Deyirlər, söz sözü çəkər,
Çəkmək olmur nadan sözü.
Mən neynirəm üstü şəkər,
Altı zəhər dadan sözü (3. səh. 14).

Bu bənddə əks olunan fəlsəfi fikirlər, sözün məna dərinliyini və onun leksik-semantik xüsusiyyətlərini müxtəlif aspektlərdən izah edir. Şeirdən verilən parçada "nadanın sözünün üstü şəkər" ifadəsi, sözün zahiri görünüşünün cazibədar olduğunu və ilk baxışda təəssürat yaradıcı olduğunu vurğulayır. Lakin "altı zəhər" misrası, bu zahiri gözəlliyin və ya cazibənin içindəki qorxulu və zərərli təbiəti ortaya qoyur. Burada şair, insanların yalnız xarici görkəmlərinə əsaslanaraq qiymətləndirilməməli olduğunu, hər kəsin içində gizlənmiş qaranlıq bir dünyanın olduğunu bildirir.

Bu fəlsəfi yanaşma, həmçinin insan təbiətinin mürəkkəbliyini və onun daxili aləminin zahiri görkəmdən çox fərqli olduğunu ifadə edir. Şair, "nadın" sözünü bu mənada simvolik olaraq istifadə edərək, insanın yalnız göründüyü kimi deyil, həm də daxili dünyasında gizlənən həqiqətləri nəzərə alaraq qiymətləndirilməsinin vacibliyini vurğulayır.

Bu baxımdan, R.Rövşənin bu əsəri, yalnız bədii bir nümunə olmaqla yanaşı, eyni zamanda insan ruhunun çoxşaxəli və mürəkkəb təbiətini əks etdirən qiymətli bir sənət əsəridir. Şairin bu fəlsəfi yanaşması, oxucuya həyatın səthinə deyil, daha dərinə, insanın iç dünyasına baxmağı öyrədir.

Yarı doğru, yarı yalan,
Yarı yağlı, yarı yavan,
Oda atsan, odda yanan,
Suya atsan, batan sözü (3, s. 14).

Şair bu bənddə etibarsız sözün mənasını şərh edərkən onu “yavan,” “odda yanan” və “suda batan” kimi mənasız və təsirsiz element olaraq təsvir edir. Bu təsvirlər, sözün əhəmiyyətini və onun dəyərini dərindən anlamağa çalışan oxucuya müxtəlif poetik mesajlar çatdırır. “Yarı doğru, yarı yalan” deyə sözləri dəyərləndirən şair həmin misra ilə insanın vicdanının olmaması, bir dediyi ilə digər sözünün həmahənglik təşkil etmədiyini qeyd edir və bu da insanların daxili aləmlərinin açılmasında, həqiqi üzlərini anlamağımıza nə qədər kömək etməsinin mühüm əhəmiyyətini qeyd edir. “Odda yanan və suda batan” ifadələri isə bəzi sözlərin heç bir dəyərinin olmadığını vurğulayır. Şair bu şəkildə, etibarsız sözün cəmiyyət və fərd üçün ciddi təsir yaratmadığını, dəyərdən düşdüyünü qeyd edir. Nəticə etibarilə belə demək olur ki, şair şeirdə insanın dəyərinin onun danışdığı söz qədər olduğunu qeyd edir. Bunu dahi Məhəmməd Fiuli də “Söz” qəzəlində belə izah edir:

Artıran söz qədrini sidqilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz (3. səh. 151).

Azərbaycan ədəbiyyatında sözün dəyəri haqqında bir çox ədəbiyyatçı və filosof müxtəlif fikirlər irəli sürmüşdür. R.Rövşən isə bu mövzuya yeni bir perspektivdən yanaşmış və sözün gücü haqqında ədəbi mülahizələrə yeni bir üslub gətirmişdir. Şeirin son bəndində şair dünyada yalnız bircə sözün - “Kişi sözü, adam sözü”nün həqiqətən əhəmiyyətli olduğunu bildirir. Azərbaycan mentalitetində kişi sözü qədim zamanlardan etibarını qorumuş və cəmiyyətdə möhkəm formalaşmış bir anlayışdır. Bu, həm də bir çox hallarda “kişi sözü verirəm” ifadəsinin işlənməsilə özünü göstərir. Beləliklə, müəllif, sözün və onun mənalarının çox böyük əhəmiyyət daşıdığını vurğulayır və poeziyada bədii dillə qiymətli ədəbi nümunələr yaradır.

R.Rövşənin fəlsəfi cəhətdən diqqət çəkən digər bir əsəri isə “Qalır” adlı şeiridir. Bu şeirdə şair, həyatımızda özümüzdən sonra qoyduğumuz izdən bəhs edir. “Bu dünyada zaman-zaman əlimizin işi qalır, əkdiyimiz ağaclardan biri solur, beşi qalır” misralarında şair, həyatın keçiciliyini və hər bir insanın özündən sonra bir iz buraxacağını ifadə edir. Şair, həyatın özündən sonra, kiminsə bizi unutsa belə, başqa bir neçə nəfərin bizi xatırlayacağını qeyd edir. Bu, həm də insanın yalnız yaşadığı dövr ərzində deyil, həm də ölümündən sonra özündən sonra qoyduğu izlərlə dünyada qalacağını göstərir.

Şairin fəlsəfi yanaşmasına, əsasən, insanın ömrü sona çatsa da, onun tərəfindən qoyulan izlər əbədi olaraq qalır. “Ömrün bitdiyini və bizdən sonra dünyada minlərlə uşağın yaşayacağını” vurğulayan şair insanın həyatda yaratdığı izlərin bu dünyada və dünyadan sonra necə xatırlanacağını ifadə edir. Şairin təfəkkürünə görə, insanın geridə buraxdığı yadigar yalnız onun “yandırdığı çırağın qalığıdır” (4. səh. 28). Bu eyni zamanda insanın həyat fəailiyyətində necə bir iz qoymasını, kim və hansı tərzdə xatırlanmasını, özündən nişanə qoyduğu işlərin mənfi və ya müsbət təsirlərinin əhəmiyyətini göstərir.

Sonda isə şair qeyd edir ki, həyat tamamilə əzab-əziyyətlə sona çatır, amma bizdən bu dünyaya yadigar olaraq yalnız öz izimiz, yolumuz qalır. Bu düşüncə, insanın həyatın əsl mənasını tapmağı və öz yerini müəyyən etməyi məqsədilə qarşıya qoyduğu mühüm bir mesajdır.

"Xeyri nədi?" adlı şeiri R. Rövşənin dünya ilə barışmaz münasibətinin ifadəsi kimi dəyərləndirilə bilər. Şeirin ümumi ruhunu narazılıq, təəssüf və sualla dolu bir baxış müşayiət edir. Əsərin əvvəlində dünyanın "zatının qırıq" olması vurğulanır ki, bu da kainatın mahiyyət etibarilə nizamsız və etibarsız olduğunu göstərir. Bu ifadə vasitəsilə müəllif insanın düzgün və səhv anlayışları arasında sərhəd çəkməsinin nə qədər çətin olduğunu diqqətə çatdırır. Belə bir dünyada "doğru"nun həqiqətən də doğru olub-olmadığını anlamaq qeyri-mümkün görünür. Şair burada insanlara etibar etməyin çətinliyini və həyatın bəzən nə qədər absurd və ziddiyyətli olduğunu ifadə edir.

R.Rövşən şeirdə bir kasıb obrazı vasitəsilə bu fikirləri konkretləşdirir. Kasıbın dili ilə deyilən fikirlər həyatın yalnız maddi yoxsulluqla deyil, mənəvi boşluqla da dolu olduğunu nümayiş etdirir. O, bədii suallar vasitəsilə həyatın mənasını sorğulayır: "Əkdiyin ağac bar vermirsə, onun kölgəsi nəyə yarar?" və ya "Günəşdə uzanıb qızınmağın xeyri nədi?" (3. səh. 51) kimi suallar həm insanın əməyinin nəticəsiz qalmasından doğan ümidsizliyi, həm də bu nəticəsizliyin doğurduğu mənəvi yorğunluğu təcəssüm etdirir.

Bu şeir həmçinin R.Rövşənin poeziyasına xas olan "bədii tənhalıq" anlayışının da daşıyıcısıdır. Şair fərdin cəmiyyətlə, dünya ilə əlaqəsinin zəif olduğunu, insanın bu sistem qarşısında aciz və tənha qaldığını ustalıqla göstərir. "Xeyri nədi?" sualı bir növ fəlsəfi ritorika kimi çıxış edərək, oxucunu da bu mənasızlıq üzərində düşünməyə vadar edir.

Nəticə etibarilə, R.Rövşənin "Xeyri nədi?" şeiri həm bədii, həm də fəlsəfi baxımdan dərin məna daşıyır. Bu şeir vasitəsilə müəllif insanın həyatdakı axtarışlarını, inamsızlığını və varoluşla bağlı suallarını qısa, lakin təsirli poetik dillə təqdim edir. Şeirin ümumi ruhu isə onu göstərir ki, R.Rövşənin poeziyasında dünya, insan və həyat münasibətləri daim sual altında saxlanılır və bu suallar bəzən cavabdan daha çox anlam daşıyır.

R.Rövşənin şeirlərini oxuduqda onun müəllifinin keçirdiyi mifik əzabı duymamaq olmur və yeri gəlmişkən, ötəri də olsa, qeyd edək ki, bu mifik əzabın mənşəyi klassik Azərbaycan poeziyası, Füzuli kədəri, ümümbəşəri kədərlə bağlı olduğu dərəcədə müasir dünya ədəbiyyatı, bu ədəbiyyatda gedən proseslər, haqq-ədalət axtarışlarında əldən düşüb ümidsizləşmiş, dünyanın sərvətlə idarə olunan şər qüvvələri tərəfindən tapdanıb əzilmiş, təhqir edilmiş və alçaldılmış sadə, səmimi adamları mücərrəd şəkildə əks etdirən Kafka, Kamyu, Markes və bunlardan da öncə Dostoyevski yaradıcılığı ilə bağlıdır (2).

Şairin "Mən bura özümü görməyə gəldim" adlı şeiri onun yaradıcılığında xüsusilə diqqət çəkən əsərlərdən biridir. Bu şeirdə dünyanın natamamlığı, həyatın paradoksallığı və insanın yaşadığı mühitə yadlaşması kimi motivlər ön plana çıxır. Lakin burada R.Rövşən bu ideyaları daha da dərinləşdirərək, insanın həyatla və ölümlə münasibətini fəlsəfi müstəviyə keçirir.

Şeirin ilk misralarında şair bu dünyanı "ağlamalı" və "gülməli" adlandırır. Bu ifadə insan həyatının ziddiyyətli təbiətini simvolizə edir. Həyatın həm sevindirici, həm də kədərverici anlarla dolu olduğunu vurğulayan şair, bu dünyaya "ağlayıb-gülməyə" gəldiyini bildirir. Bu, həm insanın emosional təbiətinə, həm də həyatın dualist strukturuna işarədir. R.Rövşən burada insanın yaşadığı həyatın bir növ teatr olduğunu, burada həm gülmənin, həm də ağlamanın rolu olduğunu göstərir. Şeirin davamında daha da dərin və fəlsəfi bir yanaşma sezilir. Şair bu dünyanı "ölmək üçün yaxşı yer" adlandırır və dünyaya "tamahlanıb ölməyə gəldiyini" qeyd edir. Bu misralar, əslində, insanın həyatla bağlı olan bütün çətinliklərinin, ümidsizliklərinin və cavabsız suallarının sonunda ölümə yönələn bir arayışa çevrildiyini ifadə edir. Ramiz Rövşən üçün ölüm, sadəcə fiziki sonluq deyil, eyni zamanda mənəvi rahatlıq, bəlkə də xilasdır. Bu səbəbdən şairin ölümə "həvəs" göstərməsi, onun yaşadığı dünyadan və bu dünyanın təqdim etdiyi mənasızlıqlardan bezmiş bir insanın fəlsəfi qəbulu kimi yozula bilər.

"Mən bu ağlamalı, mən bu gülməli" ifadəsi isə həyatı təşkil edən ikili təbiətin — xeyir və şərin, varlıq və yoxluğun, sevinc və kədərin dialektikasını ehtiva edir. Burada şair bir tərəfdən həyatın rəngarəngliyini qəbul etsə də, digər tərəfdən bu rəngarəngliyin gətirdiyi mənəvi yorğunluğu, daxili boşluğu və tənhalığı da vurğulayır. Ramiz Rövşənin bu şeirindəki əsas ideya budur ki, insan özünü dərk etmək, varlığının mahiyyətini anlamaq üçün bu dünyaya gəlmişdir. Lakin bu dərk prosesi hər zaman sadə və aydın olmur. Bəzən insan həyatın mənasını anlamağa çalışarkən onun çətinliklərindən bezir, bəzən isə həmin çətinliklərin içində öz varlığının dərinliyini kəşf edir. Şairin "özümü görməyə gəldim" deməsi də məhz bu axtarışa, bu daxili səfərə işarədir.

R.Rövşənin "Mən bura özümü görməyə gəldim" şeiri onun fəlsəfi və bədii dünyagörüşünün parlaq nümunəsidir. Şeirdə həyat və ölüm, varlıq və yoxluq, sevinc və kədər kimi əbədi mövzular şairin özünəməxsus lirizmi və dərin düşüncə tərzi ilə təqdim olunur. Oxucu bu şeiri oxuyarkən yalnız poetik zövq almır, eyni zamanda öz həyatı və mövcudluğu haqqında düşünməyə sövq olunur. Bu baxımdan, Ramiz Rövşənin yaradıcılığı yalnız ədəbi deyil, həm də fəlsəfi təhlil üçün zəngin material təqdim edir.

Şeirin son bəndində deyilir:

Mənə də yer çatar, dünya dar deyil,
Biz balıq deyilik, dünya tor deyil,
"Allah göydən baxır, Allah kor deyil!.." –
sizə bunu xəbər verməyə gəldim (4. səh.78).

Təhlil olunan bənddə müəllif insanların həyatda qarşılaşdıqları çətinlikləri və çıxılmaz vəziyyətləri balıq və tor metaforası ilə təsvir edir. İnsan balıq kimidir — nə qədər üzsə, qaçsa da, sonda yenə də dənizin dərinliyində gizlənmiş tora düşür. Bu təsvir həyatın qaçılmazlığını, taleyin insan üzərindəki hökmünü göstərir. Buradakı "tor" sadəcə fiziki təhlükə deyil, eyni zamanda mənəvi və psixoloji tələlər, cəmiyyətin basqıları və həyatın ziddiyyətli strukturu kimi yozula bilər. Şairin bu bədii təsvir vasitəsilə çatdırmaq istədiyi əsas fikir odur ki, insan bu böyük və sirli dünyada özünü nə qədər azad hiss etsə də, əslində müəyyən bir çərçivənin içində yaşayır və bu çərçivə onun hərəkətlərinə, seçimlərinə təsir edir. İnsan sonda həyatın "yemi"nə çevrilir — yaşamaq uğrunda

mübarizə aparsa belə, bu mübarizənin sonunda əksər hallarda əzilən, aldadılan və ya məğlub olan odur. Bu, R. Rövşənin həyatla bağlı tragik və reallıqdan doğan baxışıdır.

Əsərdə daha bir mühüm məqam Allahın bu prosesi izləməsi və insanların həyatındakı yanlışlıqların ondan gizli qalmamasıdır. Şair burada sadəcə müşahidəçi mövqe tutmur, əksinə özünü bir növ ilahi həqiqətləri car çəkən, insanları xəbərdar edən bir sima — peyğəmbər mövqeyində təqdim edir. Bu isə R. Rövşənin poeziyasında dini-mənəvi qatın, mistik təfəkkürün güclü yer tutduğunu göstərir. Şair açıq şəkildə bəyan edir ki, ilahi varlıq bu dünyada baş verənlərdən kənarda deyil və insanın hər bir əməli Tanrının diqqətindədir.

Burada ədəbiyyat və din, poetik təxəyyül və mənəvi dəyərlər birləşərək dərin bir fikri ortaya çıxarır: dünya fanidir, insan bu fani dünyanın müvəqqəti bir yolçusudur və onun atdığı hər bir addım əslində ilahi planın bir hissəsi ola bilər. Şair bu həqiqəti həm fəlsəfi, həm də dini baxımdan təqdim edir və insanı öz davranışları barədə düşünməyə, məsuliyyət hissini dərk etməyə səsləyir.

R.Rövşən şeirlərinin fəlsəfi-estetik istiqaməti, özünün mürəkkəb insan aləmi, bu insan aləminin müxtəlifliyi ilə xarakterizə edilən cəhətlərinin dərkinə yönəlmişdir. İnsan R.Rövşən poeziyasında tarixi prosesin, Yer üzündə maddi və mənəvi mədəniyyətin inkişafının subyekti, həyatın digər formaları ilə genetik bağlı olan bu formalardan əmək alətləti istehsal etmək qabiliyyətinə görə seçilən, aydın nitqə, təfəkkür və şüura malik olan biososila varlıq kimi bəşəri məhəbbəti özündə daha çox ehtiva edir. Gələcəyin insanı zakalı və humanist hər şeyi bilməyə çalışan fəal, eyni zamanda gözəllikdən həzz almağı bacaran insandır. Bu insan mənəvi və fiziki kimliyin həqiqi vəhdəti idealını təcəssüm etdirən bütöv, hərtərəfli inkişaf etmiş şəxsiyyətdir. Təkrarolunmaz özünəməxsusluğa, nadir mənlik fərdiliyinə malik insan, özünü ictimai varlıq kimi bərqərar edir (1).

R. Rövşən müasir Azərbaycan ədəbiyyatında aydın sözlərə böyük mənalar yükləyən az sayda şairlərdəndir. Onun yaradıcılığlının parlaqlığını dəyərləndirən Şəlalə Göytürk "Ramiz Rovşən poeziyası: İrfan, mistika və moderizm sintezi" adlı məqaləsində neosufizmi R. Rövşən cərəyanı adlandırı və "neosufizm: "Ramiz Rövşən" cərəyanı başlığı altında yazır: "Ramiz Rövşən poeziyası ədəbi-fəlsəfi düçüncə istiqamətinə görə şoxspektrli və mürəkkəbdir. Bu səbəbdən onun yaradıcılığını konkret prinsipləri olqan bir ədəbi cərəyana, yaxud hansısa "izm"ə aid etmək çətindir. XX əsrin dinamik ədəbi axınları işərisində Ramiz Rövşənin poeziyasına, ümumilikdə, Şərq klassikasının (Füzuli ənənəsi – ruhani metafizika), Azərbaycan-türk folklor sənətinin (dastançılıq, qoşma, gəraylı) və müasir Qərb cəryanları olan neosimvolizm, ekzistensializm, eləcə də magik realizmin sintezi kimi baxa bilərik" (4).

**Nəticə**

Bütün bu danışdıqlarımızı ümumiləşdirib, fikirləri dəqiqləşdirsək R.Rövşənin yaradıcılığında əksini tapan fəlsəfi məsələlər barədə aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Lirik subyekt vasitəsilə təqdim olunan mövzular ümumbəşəri səciyyə daşıyır. Şair təkcə fərdi təcrübələri deyil, həm də cəmiyyətin və zamanın ruhunu ifadə edir. Şeirlərində fəlsəfi təhlil

və poetik obrazlar bir-birinin tamamlayır, mətnlər həm düşüncə, həm də hiss baxımından oxucunu fəallaşdırır. Bu da şeirin insana daha çox təsir etməsinə səbəb olur.

2. Ramiz Rövşənin poetik dünyası yalnız ədəbi təhlil deyil, həm də fəlsəfi və sosial yanaşma tələb edir. Bu şeirlərdə insan və cəmiyyət, varlıq və yoxluq, azadlıq və qapanmışlıq kimi əsas mövzular aktuallaşır.

3. Şairin lirikasında vətən, torpaq, ölüm və həyat kimi motivlər yalnız emosional yox, fəlsəfi aspektdən də işlənmişdir. Bu, onun şeirlərini bədii dəyərindən əlavə intellektual dəyərlə də zənginləşdirir. Yaradıcılığında bir çox mövzuların yer alması şairin dünyagörüşünün əksidir və əsərləri oxucuya R. Rövənin baxış bucağında həyata baxmağa imkan yaradır.

**Ədəbiyyat siyahısı**


Babazade, Z. (2025). Literary-critical view of the prominent Azerbaijani scholar MF Akhundzada: The first systematic examples of literary theory. *Acta Globalis Humanitatis et Linguarum*, *2*(2), 38-42.

Babazade, Z. (2025). The First Influences of Western Literature on Azerbaijan Literature: Modernism and Tradition in the Works of Akhundzadeh. *Acta Globalis Humanitatis et Linguarum*, *2*(1), 71-79.

Əli İbrahimov. Ramiz Rövşən poeziyasında tanrı, vətən və insan məfhumlarına fəlsəfi yanaşma. www.philosophy.edu.az.com, 2020.

Gasimova, A. (2017). The image of the nature as a subject of philosophical generalization of Azerbaijan poetry in the second half of the twentieth century. *Л 64 Література в контексті культури: Зб. наук. праць. Вип. 28/ред. кол.*, 56.

Gülşən Əliyeva. İlahi, al məni şeirin əlindən! 525-ci qəzet, 2015, 22-23 s.

Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 400 s.

Ramiz Rövşən. Bu dünyanın hər sifəti. Bakı, TEAS Press Nəşriyyat evi, 2021, 164 s.

Şəlalə Göytürk. Ramiz Rövşən poeziyası: İrfan, mistika və modernizm sintezi. www.kulis.az.com, 2022.

Veliyev, E. (2025). Mədəniyyət və dilin müasir dövrdəki inkişafı və qarşılıqlı təsiri. *Global Spectrum of Research and Humanities*, *2*(3), 74-79.

Veliyev, Elbrus. "Azerbaycan-Türk Dilinin Lügat Terkibinin Zenginleşmesinde Morfoloji ve Sentaktik Usulün Rolü." *Recep Tayyip Erdoğan Üniversitesi Fen-Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi* 3.1 (2022): 39-45.

Received: 20.04.2025
Revised: 21.04.2025
Accepted: 26.04.2025
Published: 30.04.2025